# “Bakı Fond Birjası” QSC-nin 2016-cı il üzrə

# İdarəetmə Hesabatı

**1. Emitentin tam və qısaldılmış adı, VÖEN-i, dövlət qeydiyyatının tarixi və nömrəsi:**

1.1. Tam adı: “Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti

1.2. Qısaldılmış adı: “BFB” QSC

1.3. VÖEN-i: 1700262271

1.4. dövlət qeydiyyatının tarixi və nömrəsi: 23.10.1997-ci il, № 1700262271

**2. Emitentin hüquqi ünvanı və olduğu yer:**

2.1. Hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Bül-bül prospekti, 19.

2.2. Faktiki ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai r-nu, Babək prospekti, Ə.Quliyev 1131 “Babək Plaza” iş mərkəzi, Blok B, 15 və 16-cı mərtəbələr.

**3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

3.1. “Bakı Fond Birjası” QSC-nin adında dəyişiklik olmamışdır. “Bakı Fond Birjası” QSC bölünmə, ayrılma, birləşmə və çevrilmə yolu ilə yaradılmamışdır.

**4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**

4.1 “Bakı Fond Birjası” QSC-nin təsis edildiyi tarixdən bu Hesabatın hazırlandığı tarixədək filialı yaradılmamışdır.

**5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;**

5.1. “Bakı Fond Birjası” QSC-nin təsis edildiyi tarixdən bu Hesabatın hazırlandığı tarixədək törəmə cəmiyyəti yaradılmamışdır.

**6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**

6.1. “Bakı Fond Birjası” QSC heç bir şirkətlər qrupunun hissəsi deyil.

**7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**

7.1. Fond birjası fəaliyyəti.

**8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

8.1. “Bakı Fond Birjası” QSC fond birjası fəaliyyəti üçün lisenziyaya malikdir. Fond birjası fəaliyyəti üçün verilmiş lisenziya müddətsizdir.

**9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**

9.1. Dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının, törəmə maliyyə alətləri bazarının ticarətinin təşkil və idarə edilməsi.

**10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:**

10.1. İşçilərinin sayı: 22 (iyirmi iki) nəfər. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

**11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

| № | Müşahidə şurası | İdarə Heyəti | Audit komitəsi |
|---|---|---|---|
| 1. | Əzizov Fariz Nazim oğlu - sədr | Namazov Vüqar Faiq oğlu- İdarə Heyətinin sədri | Əfəndiyev Vaqif Camaləddin oğlu - sədr |
| 2 | Allahverdiyev Rövşən Şamil oğlu - üzv | Behbudov Elçin Sabir oğlu - üzv | Baxşiyev Faiq Aydın oğlu - üzv |
| 3. | Mikayılov Sarvan Umudvar oğlu - üzv | Xəlilova Səbinə Əziz qızı - üzv | Dadaşov Anar Nadir oğlu - üzv |
| 4. | Əliyev Araz İsmayıl oğlu - üzv | | |
| 5. | Hüseynov Asəf Akif oğlu - üzv | | |
| 6. | İslamov Fuad Rafiq oğlu - üzv | | |
| 7. | Mehmet Serkan Karabacak - üzv | | |

**12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;**

12.1. Səhmdarlarının sayı: 20 (iyirmi) nəfər hüquqi şəxs**.** Səhmdarlar arasında fiziki şəxslər movcud deyil.

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan**

**səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:**

| № | Səhmdarların adı, olduğu yer və VÖEN-i | Səhmlərin miqdarı | Səhmlərin |
|---|---|---|---|
| 1. | “Azərbaycan Sənaye Bankı” ASC, Azərbaycan Respublikası, Bakı şəhəri, Z.Əliyeva küçəsi 3, VÖEN: 9900007981 | 600 ədəd sənədsiz adi adlı səhm | 9,5238% |

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):**

14.1. “Bakı Fond Birjası” QSC-nin digər hüquqi şəxslərin nizamnamə kapitalında payı mövcud deyil.

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

| № | Səhmdarların Ümumi Yığıncağı | Səhmdarların Ümumi Yığıncağının keçirilmə tarixi | Səhmdarların Ümumi Yığıncağının keçirilmə yeri | Səhmdarların Ümumi Yığıncağında qəbul edilmiş qərarlar |
|---|---|---|---|---|
| 1. | Bakı Fond Birjası” QSC-nin Səhmdarlarının Növbəti Ümumi Yığıncağı | 14 iyun 2016-cı il | Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev prospekti 2, “Excelsior” otelinin “Alinja” zalı | **I-ci məsələ:**<br>1. 2015-ci il üçün “Bakı Fond Birjası” QSC-nin illik hesabatının, mühasibat balansının, mənfəət və zərər hesabatlarının təsdiq edilməsi.<br>**Qəbul edilmiş qərarlar:**<br>1. 2015-ci il üçün “Bakı Fond Birjası” QSC-nin illik hesabatı, mühasibat balansı, mənfəət və zərər hesabatları təsdiq edilsin.<br>2. “Bakı Fond Birjası” QSC-nin 2015-ci il üzrə bölüşdürülməmiş mənfəəti kapital ehtiyatlarına yönəldilsin.<br>**II-ci məsələ:**<br>1. “Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin üzvlərinin təyin edilməsi.<br>**Qəbul edilmiş qərarlar:**<br>1. “Bakı Fond Birjası” QSC-nin aşağıdakı tərkibdə İdarə Heyəti təyin edilsin:<br>1.1. Əzizov Fariz Nazim oğlu - sədr; |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 1.2. Namazov Vüqar Faiq oğlu - üzv;<br>1.3. Behbudov Elçin Sabir oğlu - üzv.<br>2. “Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin təyin edilməsi faktının qeydiyyata alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi, baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün müvafiq dövlət orqanına müraciət edilməsi, hazırlanan sənədlərin, o cümlədən kommersiya sirri hesab edilən məlumatların əldə edilməsi səlahiyyəti digər şəxslərə etibarnamə vermə hüquqi ilə “Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin sədrinə verilsin.<br>**III-cü məsələ:**<br>3. Digər məsələlər.<br>**Qəbul edilmiş qərarlar:**<br>1. “Bakı Fond Birjası” QSC-nin üzvləri (və ya onun hüquqi varisləri) öz fəaliyyətlərini “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun və “Bakı Fond Birjası” QSC-nin Üzvlük Qaydalarının tələblərinə uyğunlaşdıraraq (investisiya şirkəti fəaliyyəti üçün lisenziyanın alınması, təşkilati-hüquqi formanın dəyişdirilməsi və digər zəruri tədbirlərin görülməsi) davam etdirdiyi təqdirdə, bu istiqamətdə görülmüş işlər haqqında məlumatı “Bakı Fond Birjası” QSC-yə təqdim etsin.<br>2. “Bakı Fond Birjası” QSC-nin səhmdarları öz adlarında, hüquqi ünvanlarında, təsis sənədlərində, eləcə də qeydə alınmış faktlarda edilən hər bir dəyişiklik haqqında dəyişiklik baş verdiyi andan 40 gündən gec olmayaraq “Bakı Fond Birjası” QSC-yə məlumat versin. |
| 2. | “Bakı Fond Birjası” QSC-nin Səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağı | 23 dekabr 2016-cı il | Azərbaycan Respublikası, Bakı şəhəri, Üzeir Hacibəyli küçəsi 62, “Holiday İnn” otelinin “Moskva” zalı | **I-ci məsələ:**<br>1. “Bakı Fond Birjası” QSC-nin 2017-ci il üzrə büdcəsinin müzakirəsi və təsdiq edilməsi.<br>**Qəbul edilmiş qərarlar:**<br>1. “Bakı Fond Birjası” QSC-nin 2017-ci il üzrə büdcəsi cəmi gəlirlər 997 000 manat, cəmi xərclər 1 047 000 manat, xalis mənfəət (-68 000) manat olmaqla təsdiq edilsin.<br>**II-ci məsələ:**<br>1. Fariz Nazim oğlu Əzizovun “Bakı Fond Birjası” QSC-nin İdarə Heyəti sədrinin vəzifəsindən öz xahişi ilə azad edilməsi, “Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin sədri vəzifəsinin səlahiyyətlərinin icra edilməsi və İdarə Heyətinin tərkibində müvafiq dəyişikliklərin edilməsi məsələsinin müzakirəsi. |

| | | | | |
|---|---|---|---|---|
| | | | | **Qəbul edilmiş qərarlar:**<br>1. Fariz Nazim oğlu Əzizov 23 dekabr 2016-cı il tarixindən etibarən "Bakı Fond Birjası" QSC-nin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.<br>2. "Bakı Fond Birjası" QSC-nin Əməliyyat və İnformasiya Texnologiyaları üzrə Direktoru Vüqar Faiq oğlu Namazov 23 dekabr 2016-cı il tarixindən etibarən "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərini icra edən şəxs və qanuni təmsilçisi təyin edilsin.<br>3. "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin Hüquq işləri üzrə müşaviri Səbinə Əziz qızı Xəlilova "Bakı Fond Birjası" QSC-nin İdarə Heyətinin yeni üzvü təyin edilsin.<br>4. Fariz Nazim oğlu Əzizovun "Bakı Fond Birjası" QSC-nin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi və Vüqar Faiq oğlu Namazovun "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərini icra edən şəxs və qanuni təmsilçi təyin edilməsi, "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin Hüquq işləri üzrə müşaviri Səbinə Əziz qızı Xəlilovanın "Bakı Fond Birjası" QSC-nin İdarə Heyətinin yeni üzvü təyin edilməsi faktının qeydiyyata alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi, baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün müvafiq dövlət orqanına müraciət edilməsi, hazırlanan sənədlərin, o cümlədən kommersiya sirri hesab edilən məlumatların əldə edilməsi səlahiyyəti digər şəxslərə etibarnamə vermə hüquqi ilə "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərini icra edən Vüqar Faiq oğlu Namazova verilsin.<br>5. "Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərini icra edən Vüqar Faiq oğlu Namazov ilə "Bakı Fond Birjası" QSC adından əmək müqaviləsinin imzalanması, əmək müqaviləsinə dəyişikliklərin edilməsi "Bakı Fond Birjası" QSC-nin Müşahidə Şurasının sədrinə həvalə edilsin.<br>**III-cü məsələ:**<br>1. "Bakı Fond Birjası" QSC-nin Müşahidə Şurasının üzvlərin və sədrinin seçilməsi.<br>**Qəbul edilmiş qərarlar:**<br>1. "Bakı Fond Birjası" QSC-nin Müşahidə Şurasının üzvləri və sədri aşağıdakı tərkibdə növbəti iki il müddətinə seçilsin:<br><br>1.1. Əzizov Fariz Nazim oğlu - sədr; |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 1.2. Allahverdiyev Rövşən Şamil oğlu - üzv;<br>1.3. Əliyev Araz İsmayıl oğlu - üzv;<br>1.4. Mehmet Serkan Karabacak - üzv;<br>1.5. Mikayılov Sarvan Umudvar oğlu - üzv;<br>1.6. İslamov Fuad Rafiq oğlu - üzv;<br>1.7. Hüseynov Asəf Akif oğlu - üzv.<br><br>2. “Bakı Fond Birjası” QSC-nin Müşahidə Şurasının üzvlərinin və sədrinin seçilməsi faktının qeydiyyata alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi, baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün müvafiq dövlət orqanına müraciət edilməsi, hazırlanan sənədlərin, o cümlədən kommersiya sirri hesab edilən məlumatların əldə edilməsi səlahiyyəti digər şəxslərə etibarnamə vermə hüquqi ilə “Bakı Fond Birjası” QSC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərini icra edən Vüqar Faiq oğlu Namazova verilsin. |

## 16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):

| İnvestisiya qiymətli kağızın növü və forması: | İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi: | İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri: | İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir): | Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi: | İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): |
|---|---|---|---|---|---|---|
| sənədsiz adi adlı səhm | AZ1001000087, 17 sentyabr 2013-cü il | 6300 ədəd, 200 manat | 1 260 000 (bir milyin iki yüz altmış min) manat | Dividend ödənilməyib | İstqrazlar buraxılmayıb | Movcud deyil |

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

17.1. Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanılmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

18.1. Hesabat dövrü ərzində aidiyyəti şəxslərlə əqd bağlanılmamışdır**.**

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;**

19.1. 14 iyun 2017-ci il.

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat.**

20.1. “Bakı Fond Birjası” QSC-nin rəsmi internet səhifəsi: www.bfb.az

**İdarə Heyətinin sədri** **Vüqar Namazov**

**Maliyyə idarəetmə qrupun rəhbəri** **Dilarə Babayeva**

**Hesabatın hazırlanma tarixi: ____ _________________**